BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2013*

**UOT-94(479.24)**

# AZƏRBAYCAN XALQININ MÜSTƏQİLLİK UĞRUNDA MÜBARİZƏSİ VƏ SİYASİ DURUM (1989-1991-ci illər)

**C.M.ƏSGƏROVA**
***Bakı Dövlət Universiteti***
***askerovadzhamala@rambler.ru***

*XX əsrin sonunda Azərbaycanda başlanan siyasi oyanış, ümumxalq hərəkatına təkan vermişdi. Xalq hərəkatına rəhbərlik etmək məqsədilə siyasi təşkilatlar meydana gəlirdi. Azərbaycanda ictimai-siyasi vəziyyətin gərginləşdiyi, respublika rəhbərliyinin vəziyyəti öz nəzarəti altına ala bilmədiyi bir şəraiti də mitinqlər keçirilirdi. Sözügedən dövrdə yaranan təşkilatlar mitinqlərdə fəal iştirak edirdilər. Sonralar Meydan hərəkatına çevrilən bu mitinqlər müstəqilliyimizin bərpası uğrunda Azərbaycan xalqının apardığı mübarizənin göstəricisi idi.*

**Açar sözlər:** meydan hərəkatı, siyasi təşkilat, mitinq, mili azadlıq hərəkatı, milli qırğın

XX əsrin 80-ci illərin sonunda SSRİ-də ictimai siyasi həyatın demokratikləşdirilməsi nəticəsində Azərbaycanda başlanmış siyasi oyanış, təcavüzkar erməni siyasətinin təsiri altında ümumxalq hərəkatına çevrildi. Xalq hərəkatını istiqamətləndirmək üçün Əbülfəz Elçibəyin rəhbərliyi altında altı nəfərdən ibarət ilk siyasi özək yaradıldı. Xalqın təşkilatlanmaya və siyasi şüurunun yüksəldilməsinə olan ehtiyac nəzərə alınaraq, siyasi birlik və cəmiyyətlərinin yaradılmasına başlandı. Az sonra "Çənlibel","Müstəqillər, "Tərəqqi", "Qala", "Yurd", "Aşıq Ələsgər","Ozan", "Varlıq" s. və ictimai-siyasi təşkilatlar meydana çıxdı. Yeni siyasi özək və təşkilatlarda birləşən qüvvələrin bilavasitə təşəbbüsü ilə Azərbaycanda Xalq Cəbhəsinin yaradılması ideyası ortaya çıxdı (7).

1989-cu ilin iyul ayında Azərbaycan Xalq Cəbhəsi, oktyabrında Azərbaycan Milli Demokrat Partiyası (Yeni Musavat) və sairə qurumlar meydana gəldi. Demokratik dövlətin yaradılması gedişində müxtəlif partiya və qeyri-formal təşkilatların həyat meydanına atılması qaçınılmaz idi. SSRİ-nin tərkibində olan respublikalarda belə təşkilat, birlik və cəmiyyətlərin yaradılmasına əvvəllərdə cəhd göstərilmişdi. Meydana gəlmiş yeni partiyalar siyasi partiyaların ilk nümunələri idi. İctimai hərəkat üçün 1990-cı il dönüş ili oldu. Böhranın kəskinləşməsi ictimai hərəkatların özünün strukturunu dəyişərək, onların etiraz xarakterini gücləndirirdi (1, 246).

Yerlərdə partiya təşkilatları hakimiyyəti Sovetlərə verməyə məcbur olurdular. Sıravi kommunistlərin və partiya təşkilatlarının fəallığı çox aşağı idi. Bu dövrdə real hakimiyyətin daşıyıcısı dövlətdən çox Kommunist partiyası idi. Kommunist partiyasında baş verən böhran- onun rəhbər rolunu itirməsinə və ölkənin dağılmasına səbəb olacaqdı.

Demokartik qüvvələr ölkədə başlanmış iqtisadi islahatları, respublikaların öz mülkiyyətinin sahibi olması və müstəqilliyi ilə nəticələnəcəyi tarixi zərurət idi. Hakimiyyətin aşağı pilləsində oturanlar və onların ətrafındakılar Ə.Vəzirovun respublikanı idarə edə bilmədiyini aydın görərək, onun zəifləməsini və tezliklə yıxılmasını arzulayırdılar (6).

Xalq Azərbaycanı parçalamaq cəhdlərinə, ermənilərin Dağlıq Qarabağın Ermənistana verilməsi tələblərinə qarşı münasibətini əvvəllər Mərkəzi Komitəyə, ölkə və respublika rəhbərlərinə teleqramları, məktubları göndərməklə, imza toplamaqla bildirirdi (5, 3).

Sovet hakimiyyəti illərində ilk etiraz mitinqi 1988-ci ilin 19 fevralında Bakıda keçirildi. Azərbaycanda ictimai-siyasi vəziyyətin gərginləşdiyi, respublika rəhbərliyinin vəziyyəti öz nəzarəti altına ala bilmədiyi bir şəraitdə martın 16-da Elmlər Akademiyasında mitinq keçirildi. İctimaiyyətin müəyyən hissəsi çıxış yolunu uzun müddət Azərbaycan KP MK I katibi və SSRİ Nazirlər Soveti sədrinin müavini işləmiş, Moskva tərəfindən hakimiyyətdən uzaqlaşdırılmış Heydər Əliyevin respublikada hakimiyyətə gətirilməsində görürdü.

Mitinqlər 1988-ci il mayın 16-sı və 18-ində Bakıda keçirildi və bir sıra məsələlər irəli sürüldü. Bu mitinq "Yurd" təşkilatının fəal iştirakı ilə keçirilmişdi. Respublikanın görkəmli ziyalıları xalqı və rəhbərləri respublikanın hüquqlarını müdafiə etməyə çağırırdı. Azərbaycanda siyasi mübarizə dalğası yüksəldikcə ümummimilli böhran durmadan genişlənirdi. Sözügedən dövrdə xalq ölkədə baş verən demokratikləşmədən, dərinləşən iqtisadi böhrandan, Ermənistandan azərbaycanlıların qovulmasından və qondarma Dağlıq Qarabağ problemindən narazı idi. Məhz bu narazılıqla xalqın müstəqillik uğrunda mübarizəsi və mübarizə dalğası üstündə hakimiyyətə gəlməsi üçün şərait yaratmışdı. Azərbaycan xalqının milli azadlıq çağırışları mərkəzi ciddi narahat edirdi. Azərbaycanlılara qarşı tətbiq edilən zorakılıq, işgəncələr haqqında əhaliyə obyektiv informasiya verməyən respublika rəhbərliyinin fəaliyyətsizliyi ictimai-siyasi vəziyyətin partlayış həddinə çatmasını daha da sürətləndirdi.

1988-ci il noyabrın 15-də Azərbaycan Elmlər Akademiyasında izdihamlı mitinq keçirildi. 1988-ci il noyabrın 17-də Ermənistanın təcavüzkarlığına, vilayət ermənilərinin Şuşanın Topxana meşəsində törətdiyi vəhşiliyə, nadir ağacların qırılmasına, sənaye obyektlərinin tikintisinə başlanmasına etiraz əlaməti olaraq Elmlər Akademiyasında yeni mitinq təşkil olundu. Bu xalq hərəkatının ən qızğın dövrü hesab olunur (8, 2).

Respublika rəhbərliyi daxilində iqtidarın hakimiyyətdən getməsinə can atan qüvvələr də siyasi sabitliyi pozmaq, leqal və qeyri-leqal müdafiə etdikləri

qüvvələrin hakimiyyətə gətirilməsinə nail olmağa çalışırdılar. Bu məqsədlə ictimai-siyasi vəziyyətin gərginləşdirilməsində maraqlı idilər.

Elmlər Akademiyasında başlanan mitinq, Azadlıq meydanına qədər davam edən nümayişlər, daha sonra həmin meydanda gecə-gündüz davam edən on doqquz günlük Meydan Hərəkatına çevrildi. Respublikanın rayon və şəhərlərində mitinq dalğası güclənirdi. Lənkəran, Cəlilabad, Sabirabad, Ağcabədi, Şəki, Dəvəçi və digər rayonlarda rayon partiya komitələrinə qarşı etiraz ruhlu mitinqlər keçirilirdi.

Bu mitinqlər mövcud rejimə qarşı olan milli-azadlıq hərəkatı idi. Hərəkat demokratik məzmuna malik olmaqla dinc xarakter daşıyırdı. Hərəkatın əsas səciyyəvi cəhəti mitinqlər və küçə nümayişlərindən ibarət və kortəbii siyasi fəallığın güclü olması idı. İctimai-siyasi hərəkat müxtəlif siyasi cərəyanları, müxtəlif əqidəli şəxsləri özündə birləşdirmişdi.

Mitinqin hansı qüvvələr tərəfindən təşkil edilməsindən asılı olmayaraq, onun əsasında Azərbaycan xalqının Ermənistanın təcavüzünə, Qarabağa olan qəsdinə qarşı meydan etirazı dururdu. Meydanda mitinqçilər Ermənistanın Azərbaycana qarşı təcavüzünün dayandırılmasını, Dağlıq Qarabağda antiazərbaycan siyasəti yeridən qurumun ləğv edilməsini tələb edirdilər. Onlar əks təqdirdə isə Ermənistana qarşı iqtisadi sanksiyalar tətbiq edilməsini, Azərbaycandan olan deputatların SSRİ Ali Soveti sessiyasında Ermənistanın təcavüzü ilə əlaqədar məsələ qaldırmasını istəyirdilər.

Bundan əlavə nümayişçilər Ermənisatnda Göyçə Muxtar Vilayətinin yaradılmasını, Ermənistandan indiyə kimi çıxarılan azərbaycanlıların geri qaytarılmasını, pasportlarda millətimizin adının bərpa edilməsi kimi digər tələblərlə çıxış etməyə başladılar. Mitinqlərdə imperiyadan ayrılmaq, ərazi bütövlüyünü bərpa etmək, qaçqınların hüquqlarını qorumaq, ekologiyanı sağlamlaşdırmaq tələbləri irəli sürülürdü.

Bu tələblərin Azərbaycan rəhbərliyini qane etməsinə baxmayaraq mitinqin dayandırılmasını tələb etdilər. Meydandakılar tələbləri yerinə yetirilməyincə meydanı tərk etməyəcəklərini bildirdilər. Meydan səngimək bilmir günügündən iştirakçıların sayı artırdı. Onların sayı milyonu keçirdi. Nümayişçilərin əllərində 1918-1920-ci illərdə mövcud olmuş Azərbaycan Xalq Cumhuriyyətinin bayrağı qaldırılırdı. Nümayişçilər hətta gecə də meydanı tərk etmirdilər. Rəhbərlik xalqın problemə qarşı olan münasibətini artıq bilməsinə baxmayaraq, erməni millətçiliyinə, separatizminə qarşı heç bir tədbir görmürdü (4, 57).

Xalq hərəkatının yüksək vüsət aldığı bir şəraitdə, respublika və rayon səviyyələrində hakimiyyət uğrunda mübarizə qızışmaqda idi. Hakimiyyət uğrunda mübarizə milli birliyin yaranması yolunda ciddi maneə yaradırdı. Belə bir dövrdə xalq Heydər Əliyevin qayıtmasını istəyirdi. Heydər Əliyev məhz M.S.Qorbaçov tərəfindən hakimiyyətdən uzaqlaşdırıldığından Moskva vasitəsilə onu hakimiyyətə gətirmək mümkünsüz idi.

İndi təşkilatlanmaq, mübarizəni demokratik vasitələrlə davam etdirmək lazım idi. Bu həqiqəti dərk edənlər artıq meydandan uzaqlaşmağa başlamış,

meydan isə seyrəlməkdəydi. Hərbi hakimiyyət mitinqçilərdən meydanı tərk etməyi tələb etdi, ertəsi gün gecə hərbiçilər hücum edib meydanı zorla boşaltdırdılar. Meydan dağıldıqdan bir neçə gün sonra Bakıda və başqa şəhərlərdə nümayişlər və etiraz mitinqləri keçirildi. Kortəbii də olsa "Meydan" xalq hərəkatının birinci mərhələsinin zirvəsi idi. Mitinq və nümayişlərlə mövcud problemlərin heç birini həll etmək olmadığını Meydan bir daha göstərdi. Demokratikləşmə yolu ilə gedərək, Moskvanın təyin etdiyi rəhbərlərin əvəzinə, xalqın nümayəndələrini seçmək, xalq birliyini təmin etmək, respublikanın suveren hüquqlarının qorunmasına nail olmaq lazımdır. 1989- cu ildə Azərbaycan cəmiyyətindəki siyasi qüvvələr – hakim AKP ilə mitinq kütləsi arasında qütbləşmə getdikcə daha da dərinləşirdi. Alternativ siyasi müxalifətə çevrilən mitinqlərdə Dağlıq Qarabağ və cəmiyyətin sosial problemləri məsələlərinə getdikcə daha çox "suverenitet", "müstəqillik", "şəxsi mülkiyyətçilik", "cəmiyyətin və siyasi strukturun demokratikləşməsi" tələbləri qoşuldu. Proseslərin gedişi respublikaların sonrakı iqtisadi və sosial inkişafının ancaq müstəqil dövlətçilik formasında mümkünlüyünü göstərirdi. 1989-cu ildə respublikada ictimai-siyasi hadisələrin gedişi, hakim partiyanın kəskin müxalifəti cəmiyyətin əksər hissəsinin istəyinin ifadəçisi kimi yeni bir təşkilati formanın axtarılmasının vacibliyini göstərirdi.

İctimai-siyasi hərəkat mahiyyətcə Azərbaycan vətəndaşının şüurunun keyfiyyətcə yeniləşməsi və onda yeni siyasi dəyərlər olan "azadlıq", "demokratiya", "müstəqil dövlətçilik", "humanizm" və bir sıra başqa ideyaların dərin kök salması demək idi.

80-ci illərin sonundan başlayaraq erməni millətçiləri açıq-aşkar plan cızır, nəyin bahasına olursa olsun Azərbaycan torpaqlarını ələ keçirməyə çalışırdılar.

1985-ci ildə Sovet İttifaqında M.Qorbaçov hakimiyyətə gəlməsi ilə erməniləri DQMV-nin Azərbaycandan qoparılaraq Ermənistan SSRİ- yə birləşdirilməsi məsələsində ümidləndirirdi.

SSRİ-nin dağıldığı ərəfədə Azərbaycanda xalqın rəhbərliyi altında on doqquz gün davam edən bu hərəkat yatırılmışdı. İstədiyi nəticəni əldə edə bilməsə də, bu hərəkatın nəticəsi olaraq, sonralar Azərbaycanın müstəqilliyinin bərpası uğrunda mübarizəyə başçılıq etmiş Azərbaycan Xalq Cəbhəsi meydana gəlmişdi. Lakin bir müddət sonra onun rəhbərləri arasında münaqişələr başladı ki, məhz bu da idarəetmədə çətinliklərin meydana gəlməsinə gətirib çıxartdı. Azərbaycan xalqı isə liderlərin qeyri-ardıcıl mövqeyini görüb bu təşkilatdan uzaqlaşmağa başladı.

Qarabağ komitəsi 1988-ci ilin əvvəllərində Dağlıq Qarabağın Ermənistana ilhaqından müxtəlif variantlardan ibarət plan hazırladı. Plana görə İttifaq dövləti tərəfindən Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi tələbi qəti rədd edildiyi təqdirdə, o zaman Qarabağ erməniləri SSRİ-nin tərkibindən çıxmalı daha sonra isə Ermənistanın tərkibində olmaq şərti ilə yenidən Sovet

Sosialist Respublikalar İttifaqına daxil olmaq haqqında xahişlə SSRİ Ali Sovetinə müraciət etməli idilər.

SSRİ-nin konstitusiyasına görə Dağlıq Qarabağ Muxtar Vilayəti öz müqəddaratını müstəqil həll etmək hüququna malik olmadığından belə səlahiyyətlərə malik olan Ermənistan özü Dağlıq Qarabağın tərkibinə daxil olduğunu bəyan etməli, paytaxtı Stepanakert olan, Arsax erməni respublikası tabeçiliyində olmalı idi.

1988-ci ilin yanvarından etibarən Ermənistan sürətlə planını həyata keçirməyə başlamışdı. Yanvarın 25-dən Ermənistanda yaşayan azərbaycanlilarin ilk qrupu doğma el-obasından didərgin salındı. Azərbaycanlıları kütləvi surətdə qovmaqla bir tərəfdən onların arasında vahimə salaraq, Ermənistanı hamılıqla tərk etməsinə nail olmağa çalışırdılar. Digər tərəfdən isə Azərbaycanda ictimai-siyasi vəziyyətin gərginləşdirilməsinə, erməni-azərbaycanlı milli münaqişəsi törədilməsinə can atılırdı. Moskva isə bu cinayətlərə göz yumurdu. Qovulanların azərbaycanlılar olmasına baxmayaraq DQMV-də ermənilərin hüquqlarının güya pozulması bəhanəsi ilə mitinqlər təşkil olunurdu.

1988-ci il fevralın 19-da Muxtar Vilayətin ali Sovetinin sessiyasının keçirilməsi, DQMV status məsələsinə baxılması haqqında SSRİ Ali Sovetinə müraciət qəbul edilməsi çağırışların altında kütləvi antiazərbaycan mitinqi keçirildi. 1988-ci il fevralın 20-də Muxtar Vilayətin Ali Sovetinin sessiyasında DQMV statusuna baxılması barədə SSRİ Ali Sovetinə müraciət qəbul edildi. Dövlətçiliyimizə qəsd kimi qəbul edildiyindən həmin müraciət respublika əhalisində kütləvi narazılığın daha da artmasına səbəb oldu. Artıq Azərbaycan xalqının ayağa qalxdığı bir vaxtda növbəti erməni cinayətləri törədilirdi. Fevralda Yeravanda tarixən fəaliyyət göstərən məscid təhqirə məruz qalmışdı, bundan əlavə azərbaycanlılarla ermənilər arasında sünii toqquşma təşkil edilərək, iki azərbaycanlı qətlə yetirilmişdi. Milli toqquşmanın qarşısını almaq üçün əməli tədbir görülmədi. Bunun əksi olaraq fevralın 28-də Sumqayıt faciəsi törədildi. Cinayətin əsas təşkilatçıları ermənilər olmasına baxmayaraq, cinayətin ancaq azərbaycanlılar tərəfindən törədilməsi haqqında erməni mətbuatı dünyaya iftiralar yayırdı (2).

Sumqayıtda baş verən hadisələri bəhanə edən Ermənistan Quqark, Masis, Yerevan, Dilican, Qafan, Mehri, Sevan və digər tarixi yaşayış yerlərindən azərbaycanlıları qovub çıxartdılar.

Azərbaycanda sosial-iqtisadi və siyasi böhranın getdikcə dərinləşdiyi bir şəraitdə Ermənistandan azərbaycanlıların didərgin salınaraq, qaçqın vəziyyətində Azərbaycana pənah gətirməsi respublikada ictimai-siyasi vəziyyətin daha da kəskinləşməsinə gətirib çıxartdı. Qaçqınlarla iş aparmaq üçün respublika əhəmiyyətli mərkəzi bir təşkilat yaradılmamışdı. Məntiqi əsası olmayan arqumentlər gətirilərək qaçqınların taleyinə göstərilən biganəlik nəticəsində respublikada ictimai-siyasi vəziyyət gərginləşdi. Ümumxalq hərəkatı üçün obyektiv zəmini Dağlıq Qarabağın ilhaq edilməsi planını və Ermənistanda yaşayan azərbaycanlıların öz yurdlarından vəhşicəsinə didərgin salınmasını daha da gücləndirdi. Azərbaycan xalqı etiraz nümayişlərinə qalxır, kortəbii mitinqlərə toplaşırdı. Erməni millətçilərinin azərbaycanlılara qarşı qanlı əməlləri nəticəsində Ermənis-

tanda bir nəfər də azərbaycanlı qalmamışdı, Azərbaycanlıların son nümayəndəsi Nüvədi kəndinin əhalisi 1991-ci il avqustun 8-də sovet əsgərlərinin köməyi ilə Ermənistandan qovuldu. Azərbaycanlılara qarşı törədilən cinayətlərin dünyada soyuqqanlılıqla qarşılanması Dağlıq Qarabağda separatçıların əl-qolunu daha da açdı. Erməni millətçilərinin təhrikedici hərəkətləri, eyni zamanda Dağlıq Qarabağ Muxtar Vilayətinin azərbaycanlılar yaşayan və respublika sərhədlərinə, kəndlərinə silahlı basqınları getdikcə daha da kəskinləşirdiməkdəydi. Bütün baş verən hadisələrə qarşı demək olar ki, respublikanın hər bölgəsində izdihamlı mitinqlər başlanmış və ümumi tətil elan olunmuşdu. Artıq mərkəz respublikanın xaos vəziyyətində və qiyam ərəfəsində olduğunu görür və qətiyyətli tədbirlər görülmədiyi təqdirdə Azərbaycanın itiriləcəyini aydın dərk edirdi.

Azərbaycanın ərazi bütövlüyünü pozmaq cəhdlərinə qarşı, SSRİ rəhbərliyinin, Azərbaycan xalqı barəsində apardığı qərəzli siyasətə və yerli rəhbərliyin xəyanətkar fəaliyyətinə qarşı əhalinin etirazı başlanmışdı. Bakıya və Respublikanın bir sıra rayonlarına bu etirazın qarşısını almaq üçün dinc əhaliyə divan tutmaq məqsədilə sovet hərbi hissələri yeridildi.

1990-cı il yanvarın 19-da SSRİ Ali Soveti Rəyasət Heyəti yanvarın 20-də "Bakı şəhərində fövqəladə vəziyyət tətbiq edilməsi haqqında" fərman verdi. Mərkəzin planlarına maneçilik törədilməsin deyə fövqəladə vəziyyətin elan olunacağı vaxt gizli saxlanıldı. Xalqa məlumat verilməsin deyə 19 yanvar tarixində Azərbaycan Televiziyasının enerji bloku partladılaraq sıradan çıxarılmışdı (9).

Yanvarın 21-də Heydər Əliyev Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək təşkil olunmuş izdihamlı yığıncaqda etdiyi çıxış ilə doğma xalqı ilə birgə olduğunu bildirmişdi. O, bütün bu hadisələrin mərkəzin və respublika rəhbərlərinin yol verdiyi kobud siyasi bir səhv kimi ifşa etmişdi. Xalq həmişə Heydər Əliyevə etimad göstərmiş, ona təcrübəli və etibarlı rəhbər kimi baxmışdır (3).

Sovet hərbi hissələrinin Azərbaycana təcavüzü, mülki əhalinin kütləvi surətdə vəhşicəsinə güllələbaran edilməsi təkcə tamamilə çürümüş sovet rejiminin dağılmasının əlaməti deyildi. Eyni zamanda azərbaycanlıları öz əzəli və tarixi məskənlərindən sıxışdırıb çıxarmaq barədə köhnə hələ çarizmin vəsiyyət etdiyi, məqsədyönlü siyasətin həyata keçirilməsinin sübutu oldu. Bütün bunlarla yanaşı, mərkəz sovet imperiyasını, kommunist sistemin nəyin bahasına olursa-olsun qoruyub saxlamağa cəhd göstərərək, milli respublikalarda hakimiyyəti və oyuncaq rejimləri möhkəmləndirmək istəyirdi. 1990-cı il "Qanlı Yanvar" hadisəsindən sonra milli azadlıq hərakatı yeni məcraya daxil olmuşdu. İndi o, imperiya tərkibindən çıxmaq, müstəqillik əldə etmək məzmununu almışdı. İqtidar-müxalifət qarşıdurmasında da yeni mərhələ başlanmaqdaydı.

İmperiyanın şovinist rəhbərlərinin göstərişi ilə törətdikləri qırğınlar Azərbaycan xalqının iradəsini qıra bilmədi. Əksinə, imperiyanın dayağı hesab edilən Kommunist Partiyasını və Sovet hakimiyyətini gözdən saldı. Bu hadisə bir daha sübut etmiş oldu ki, suverenliyin yeganə yolu imperiyanın dağılmasında, müstəqilliyin bərqərar olunmasındadır.

## ƏDƏBİYYAT

1. Azərbaycan tarixi, VII c. Azərbaycan Milli Elmlər Akademiyası A.Bakıxanov Adına Tarix İnstitutu. Bakı: Elm, 2008, s. 608+80 s. illüstrasiya.
2. Azərbaycan qəz., 1992, 22 fevral.
3. Azərbaycan qəz., 1993, 23 yanvar.
4. Балаев А. Азербайджанское национальное движение в 1917-1918 гг. Баку: Елм, 1998, с.136.
5. Ermənistan Respublikası: terrorizm-dövlət siyasətinin tərkib hissəsi kimi. Faktlar, rəqəmlər. Bakı: Azərnəşr, 2001, s. 24.
6. Respublika qəzeti.Azərbaycan XXI əsrin və III minilliyin ayrıcında. 2000, 30 dekabr.
7. TİEA (Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitutunun Elmi Arxivi) f,1, s. 19, i 8953, v. 13.
8. TİEA f-1, s. 19, 8953, v. 21.
9. TİEA f-1, s. 19, 8953, v. 77.

## БОРЬБА АЗЕРБАЙДЖАНСКОГО НАРОДА ЗА НЕЗАВИСИМОСТЬ И ПОЛИТИЧЕСКОЕ ПОЛОЖЕНИЕ

**Д.М.АСКЕРОВА**

### РЕЗЮМЕ

Начало политического пробуждения в конце XX века дал толчок национальному движению. Чтобы привести национальное движение были сформированы политические организации. Правительство не могло контролировать напряженную общественно-политическую ситуацию, и в Азербайджане были проведены митинги. В этот период эти организации принимали активное участие в заседаниях. Позднее эти митинги превратились в движение за восстановление независимости и свидетельствовали о борьбе народа Азербайджана.

**Ключевые слова:** движение Мейдан, политическая организация, митинг, национально-освободительное движение, национальное уничтожение

## STRUGGLE OF THE AZERBAIJANI PEOPLE FOR INDEPENDENCE AND THE POLITICAL SITUATION

**J.M.ASGAROVA**

### SUMMARY

At the end of the XX century, there began a political awakeess, that incited national movements. There were established political organizations to control these movements. The goverment lost control over the strained social-political situation. These organizations took active parts at the meetings. Later, these meetings turned into the movement for independence and testified for the people's struggle in Azerbaijan.

**Key word:** movement "maydan", political organization,meeting, national liberation movement, national destruction